# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 6 fevral tarixli 31 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhlükə potensiallı təbiət və texnogen xarakterli hadisələrin baş vermə ehtimalının yüksək olduğu zonalarda mühafizə tədbirlərinin növləri və onların tətbiqi halları"nda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 6 fevral tarixli 31 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 284; 2018, № 10, maddə 2164, № 11, maddə 2440; 2020, № 5, maddə 644) ilə təsdiq edilmiş "Təhlükə potensiallı təbiət və texnogen xarakterli hadisələrin baş vermə ehtimalının yüksək olduğu zonalarda mühafizə tədbirlərinin növləri və onların tətbiqi halları"nın 3.3-cü bəndi aşağıdakı redaksiyada verilsin:

3.3. Əhalinin sağlamlığını, ətraf mühiti və əmlakı dənizdə və quruda neft-qaz əməliyyatları zamanı yarana biləcək qəzalardan mühafizə etmək üçün bu obyektlər ətrafında xüsusi mühafizə zonaları müəyyən edilmişdir. Neftqazçıxarma sənayesi obyektlərindən yaşayış binalarına, fərdi yaşayış evlərinə, yataqxanalara, ictimai və inzibati binalara, müvəqqəti salınmış qəsəbələrə, sənaye və kənd təsərrüfatı müəssisələrinə, elektrikötürücü xətlərinə və elektrik yarımstansiyalarına qədər minimum məsafələr (metrlə) aşağıdakı cədvəldə verilmişdir:

| Sıra №-si | Neftqazçıxarma sənayesi obyektləri | Yaşayış binaları, fərdi yaşayış evləri, yataqxanalar, inzibati binalar və müvəqqəti salınmış qəsəbələr | İctimai binalar (mədəniyyət və təhsil müəssisələrinin binaları, uşaq bağçası-körpələr evi, tibb müəssisələrinin binaları, iri ticarət mərkəzləri, əyləncə kompleksləri və s.) | Sənaye və kənd təsərrüfatı müəssisələrinin binaları | Elektrik-ötürücü xətləri (hava xətləri - 6 kV və yuxarı) | Elektrik yarımstansiyaları (35/6 kV və yuxarı) |
|---|---|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** |
| 1. | Fontan, qazlift və dalma nasosları ilə təchiz olunmuş quyular | 300 | 500 | 100 | 60 | 100 |
| 2. | Mancanaq dəzgahı ilə istismar olunan və basqı quyuları | 150 | 250 | 50 | 30 | 50 |
| 3. | Ləğv olunmuş quyular | 75 | 125 | 25 | 15 | 25 |
| 4. | Neftin çıxarılması üçün A və B kateqoriyalı bina və qurğular (ölçmə qurğusu, separator qurğusu, nasos stansiyası, kompressor stansiyası, neftin hazırlanma qurğusu, atqı qurğusu, mərkəzi yığım məntəqəsi və s.) | 300 | 500 | 100 | elektrik qurğularının quraşdırılması qaydalarının tələblərinə uyğun | 80 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| 5. | Qazın yandırılması üçün məşəl | 300 | 500 | 100 | 60 | 100 |
| 6. | Qazatqı şamı | 300 | 500 | 100 | 30 | 30 |

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 7 iyul 2022-ci il

№ 259